https://doi.org/10.59849/3006-1342.2026.2.80
UOT 94(479.24)

*Solmaz Adil qızı Əzimova*
*Bakı Dövlət Universiteti*
*tarix üzrə fəlsəfə doktoru*
*E-mail: solmazazimova2021@gmail.com*
*https://orcid.org/0009-0007-6046-1617*

# SƏFƏVİ DÖVLƏTİ İLƏ RUSİYA ÇARLIĞI ARASINDA XVII ƏSRDƏ İQTİSADİ MÜNASİBƏTLƏR

*Səfəvi–Rusiya münasibətləri XVII əsrdə əsasən ipək ticarəti, Xəzər–Volqa tranzit yolu və qarşılıqlı iqtisadi maraqlar əsasında inkişaf etmişdir. Azərbaycanın strateji mövqeyi bu əlaqələrdə mühüm rol oynamış, Şamaxı, Bakı, Dərbənd və Həştərxan kimi şəhərlər ticarətin əsas mərkəzlərinə çevrilmişdir. Şah II Abbas dövründə rus tacirlərinə 1664-cü il fərmanı ilə geniş imtiyazlar verilməsi ticarət dövriyyəsinin artmasına səbəb olmuşdur.*

*Eyni zamanda, münasibətlər yalnız iqtisadi sahə ilə məhdudlaşmamışdır. Don kazaklarının Xəzər sahillərinə dağıdıcı yürüşləri, 1667 və 1671-ci illərdəki zəlzələlər, Rusiyanın Dərbənd ətrafında istehkam tikmə cəhdləri və 1653-cü il hadisəsi kimi amillər ciddi siyasi gərginlik yaratmışdır. Bu problemlərə baxmayaraq, hər iki tərəf açıq müharibədən yayınaraq diplomatik danışıqlar yolu ilə münasibətləri qorumağa çalışmışdır.*

*1667-ci il müqaviləsi isə sonrakı dövrlərdə Səfəvi-Rusiya ticarət əlaqələrinin hüquqi bazası kimi xidmət etmiş və Culfa erməni kompaniyasının ipək ticarətindəki rolunu rəsmiləşdirmişdir. Ümumilikdə, bu münasibətlər qarşılıqlı iqtisadi fayda ilə strateji rəqabətin iç-içə olduğu mürəkkəb dinamikanı əks etdirir.*

*Açar sözlər:* Səfəvi-Rusiya münasibətləri, İpək ticarəti, Xəzər–Volqa ticarət yolu, Şah II Abbas dövrü, Culfa kompaniyası

## *Giriş*

Səfəvi dövləti ilə Rusiya çarlığı arasında XVII əsrdə formalaşan iqtisadi və siyasi münasibətlər həm regional, həm də beynəlxalq miqyasda mühüm əhəmiyyət kəsb edirdi. Bu əlaqələrin əsasını Xəzər–Volqa ticarət yolu, tranzit daşımalar və xüsusilə Azərbaycan ipəyinin ixracı təşkil edirdi. Azərbaycan ərazisi coğrafi mövqeyinə görə Şərqlə Qərbi birləşdirən strateji körpü rolunu oynayırdı. Şah I Abbasdan başlayaraq Səfəvi hökmdarları ticarət əlaqələrini gücləndirməyə çalışsa da, münasibətlər həmişə sabit olmamışdır. Şah II Abbas dövrü (1642–1666) bu münasibətlərin həm iqtisadi əməkdaşlıq, həm də siyasi gərginlik baxımından xarakterik mərhələsidir. Bu dövrdə ticarət maraqları iki dövləti yaxınlaşdırsa da, kazak basqınları, sərhəd problemləri və Rusiyanın genişlənmə siyasəti vaxtaşırı qarşıdurmalara səbəb olurdu.

**1. İqtisadi münasibətlərin əsasları.** Səfəvilərin Rusiya ilə iqtisadi münasibətləri əsasən tranzit ticarət yolları və ipək ticarəti üzərində formalaşmışdır. Şah I Abbas və sonrakı Səfəvi hökmdarları dövründə Azərbaycan ərazisi Şərqlə Qərbi birləşdirən mühüm ticarət körpüsü rolunu oynayırdı. Xüsusilə Səfəvi dövləti ilə Rusiya çarlığı arasında iqtisadi əlaqələrin əsasını Azərbaycan üzərindən keçən beynəlxalq ticarət marşrutları təşkil edirdi [6, s. 317-318]. Bu marşrutlar vasitəsilə Şərq malları, xüsusilə ipək, Rusiya və oradan da Avropa bazarlarına çıxarılırdı. Şamaxı, Bakı və Həştərxan kimi şəhərlər Səfəvi–Rusiya ticarət sistemində əsas tranzit və mübadilə mərkəzləri kimi çıxış edirdi. Xüsusilə Həştərxan vasitəsilə Səfəvi tacirləri Volqa ticarət sisteminə daxil olur, rus tacirləri isə Xəzər dənizi üzərindən Azərbaycan

bazarlarına çıxış əldə edirdilər. İqtisadi münasibətlərin əsas sahələrindən biri ipək ticarəti idi. Azərbaycan ipəyi Rusiya bazarında yüksək qiymətləndirilir, Rusiya isə bu məhsulu Avropa ilə ticarətdə vasitə kimi istifadə edirdi. Bununla yanaşı, hər iki tərəf arasında karvan ticarəti, xəz məhsulları və müxtəlif sənətkarlıq mallarının mübadiləsi də mövcud idi. Ümumilikdə, Səfəvi–Rusiya iqtisadi münasibətləri qarşılıqlı maraqlara əsaslanırdı və Xəzər–Volqa ticarət sistemi vasitəsilə regionlararası iqtisadi inteqrasiyanı gücləndirirdi.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Səfəvi dövləti ərazilərində iqtisadi tənəzzülün başlaması, 1667 və 1671-ci illərdə Şamaxıda dağıdıcı zəlzələlərin baş verməsi, 1667-1670-ci illərdə Stepan Razinin başçılığı ilə kazakların Xəzər dənizində və Azərbaycanın Xəzər sahili ərazilərdə dağıdıcı yürüşləri şimal tranzit xətti ilə həyata keçirilən ticarətin inkişafına mənfı təsir göstərmişdir [7, s. 197]. Şah II Abbas dövrü Səfəvi dövlətinin həm daxili sabitlik, həm də xarici siyasətdə nisbətən balanslı kurs apardığı mərhələlərdən biri kimi səciyyələndirilir. Bu dövrdə Səfəvi dövləti ilə Rusiya çarlığı arasında siyasi və iqtisadi münasibətlər əsasən qarşılıqlı maraqlar üzərində qurulmuş, lakin zaman-zaman gərginlik elementləri də özünü göstərmişdir. Hər iki dövləti yaxınlaşdıran ticarət əlaqələrinin möhkəmləndirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bundan irəli gələrək, XVII əsrin ortalarında Rusiya dövlətinin Xəzəryanı regiona marağı getdikcə artırdı. Xüsusilə Xəzər dənizi vasitəsilə ticarət yollarına nəzarət etmək, Şərq bazarlarına çıxış əldə etmək və ipək ticarətində iştirak etmək Moskva hakimiyyətinin əsas məqsədlərindən idi. Bu baxımdan Şamaxı, Bakı və Dərbənd kimi şəhərlər strateji əhəmiyyət kəsb edirdi.

Şah II Abbas dövründə Səfəvi-Rusiya münasibətlərinin iqtisadi əsasını ipək ticarəti təşkil edirdi. Azərbaycan ipəyi Avropa və Rusiya bazarlarında yüksək qiymətləndirilirdi. Rusiya tacirləri, xüsusilə Həştərxan vasitəsilə Səfəvi torpaqları ilə aktiv ticarət əlaqələri saxlayırdılar. Həştərxan şəhəri iki dövlət arasında mühüm tranzit mərkəzinə çevrilmişdi və burada Səfəvi tacirlərinə müəyyən imtiyazlar verilirdi [4, s. 102-104]. Eyni zamanda, rus tacirləri də Səfəvi ərazisində fəaliyyət göstərmək üçün xüsusi icazələr alırdılar.

Bununla yanaşı, siyasi münasibətlər həmişə sabit olmamışdır. Don kazakları tərəfindən həyata keçirilən basqınlar Səfəvi torpaqlarında ciddi narazılıq yaradırdı. Bu hücumlar əsasən talan xarakteri daşıyır, sahilboyu yaşayış məntəqələrinə və ticarət karvanlarına zərər vururdu. Səfəvi hakimiyyəti bu məsələyə görə dəfələrlə Rusiya tərəfinə etiraz etmiş, lakin Moskva hökuməti kazaklar üzərində tam nəzarət edə bilmədiyini bildirirdi. Bu isə iki dövlət arasında diplomatik gərginliyə səbəb olurdu. Diplomatik əlaqələr çərçivəsində tərəflər arasında elçilərin mübadiləsi də davam edirdi. Hər iki dövlət qarşılıqlı olaraq ticarət təhlükəsizliyinin təmin edilməsi, sərhəd sabitliyinin qorunması və iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində danışıqlar aparırdı. Bu dövrdə Səfəvi dövləti üçün Rusiya ilə münasibətlər həm Osmanlılara qarşı balans yaratmaq, həm də şimal istiqamətində təhlükəsizliyi təmin etmək baxımından mühüm idi.

Şah II Abbas dövründə Səfəvi-Rusiya münasibətləri əsasən iqtisadi əməkdaşlıq üzərində qurulsa da, sərhəd təhlükəsizliyi və kazak basqınları kimi problemlər bu münasibətlərin tam sabit xarakter almasına mane olurdu. Buna baxmayaraq, qarşılıqlı ticarət maraqları və diplomatik əlaqələr iki dövlət arasında davamlı əlaqələrin qorunmasını təmin etmişdir. XVII əsrin ortalarında Don kazaklarının Xəzəryanı Azərbaycan torpaqlarına ardıcıl və qarət xarakterli yürüşləri regionda siyasi sabitliyi ciddi şəkildə sarsıdır və Səfəvi dövləti ilə Rusiya arasında münasibətlərin kəskinləşməsinə səbəb olurdu. Bu hücumlar təkcə iqtisadi ziyanla məhdudlaşmır, həm də sərhəd təhlükəsizliyi məsələsini aktuallaşdırırdı. Məhz bu şəraitdə hakimiyyətdə olan II Şah Abbas (1642–1666) məsələni diplomatik yollarla həll etməyə çalışaraq xüsusi nümayəndəsi Məhəmmədqulu bəyi Moskvaya göndərmişdi. Elçinin əsas missiyası rus hakimiyyətindən Don kazaklarının Xəzər dənizindəki nəzarətsiz fəaliyyətinə son qoyulması və sərhəd bölgələrində təhlükəsizliyin təmin edilməsi istiqamətində qəti tədbirlərin

görülməsini tələb etmək idi. Bununla yanaşı, Rusiyanın regionda möhkəmlənmək siyasəti çərçivəsində Terek çayı sahillərində olduğu kimi, Dərbənd ətrafında da istehkamlar və qalalar tikmək cəhdləri Səfəvi sarayında ciddi narahatlıq doğururdu. Bu addımlar açıq şəkildə əraziyə nüfuz etmək və strateji mövqeləri ələ keçirmək niyyəti kimi qiymətləndirilirdi. Nəticədə qarşılıqlı etimadsızlıq daha da dərinləşdi.

Gərginliyin zirvə nöqtəsi 1653-cü ildə Şirvan bəylərbəyi Xosrov xanın Dərbənd ətrafında ruslar tərəfindən inşa edilən tikililəri dağıtması ilə baş verdi. Bu hadisə faktiki olaraq tərəflər arasında münasibətləri müharibə həddinə çatdırdı və qarşıdurma riskini maksimum səviyyəyə yüksəltdi [3, s. 108-109]. Lakin hər iki dövlətin genişmiqyaslı müharibənin nəticələrinin ağır ola biləcəyini nəzərə alması onları daha ehtiyatlı davranmağa vadar etdi.

Nəticə etibarilə, 1650-ci illərin ortalarından etibarən yaranmış siyasi gərginlik 1662-ci ilə qədər davam etsə də, qarşılıqlı diplomatik təşəbbüslər və danışıqlar sayəsində açıq hərbi toqquşmanın qarşısı alındı. Bu proses göstərir ki, tərəflər regionda mövcud güc balansını qorumağa və iqtisadi-siyasi əlaqələrin tamamilə pozulmasının qarşısını almağa çalışırdılar.

**2. İqtisadi imtiyazlar və 1667-ci il müqaviləsi.** Şah II Abbasın hakimiyyəti illərində Səfəvi dövlətinin Rusiya ilə münasibətlərində yalnız siyasi deyil, həm də iqtisadi amil mühüm yer tuturdu. Xüsusilə ticarət əlaqələrinin genişləndirilməsi saray tərəfindən strateji istiqamət kimi qiymətləndirilirdi. Bu dövrdə rus tacirləri Səfəvi ölkəsinin əsas ixrac məhsullarından biri olan Azərbaycan ipəyini Şamaxı və Bakı kimi mühüm ticarət mərkəzlərindən toplayaraq Volqa-Xəzər ticarət yolu vasitəsilə Həştərxana çatdırırdılar [5, s. 248, 273]. Beləliklə, Xəzər hövzəsi iki dövlət arasında iqtisadi inteqrasiyanın əsas arteriyalarından birinə çevrilmişdi.

Səfəvi hökmdarı bu əlaqələri daha da canlandırmaq məqsədilə 1664-cü ildə mühüm bir fərman vermişdir. Həmin fərmana əsasən rus tacirlərinə dövlətin bütün ərazisində sərbəst ticarət aparmaq hüququ tanınmış, onlar gömrük rüsumlarından və müxtəlif yerli ödənişlərdən azad edilmişdilər. Bu güzəştlər yalnız vergi və rüsumlarla məhdudlaşmırdı; eyni zamanda tacirlərin qonaq evlərindən, nəqliyyat vasitələrindən və bazarlardakı satış məkanlarından istifadə müqabilində ödədikləri xərclər də ləğv olunmuşdu [8, s. 25]. Bu addım Səfəvi dövlətinin xarici tacirlərə, xüsusilə rus ticarət dairələrinə açıq iqtisadi siyasət yürütmək niyyətini açıq şəkildə nümayiş etdirirdi. Onu da qeyd etmək lazımdır ki, sonrakı dövrlərdə Səfəvi-Rusiya ticarət münasibətlərində 1667-ci il müqaviləsi əsas rol oynamış və mənbə olaraq bazaya çevrilmişdi. 1717-ci ildə A.Volınskinin etimadüd-dövlə Fətəli xana təqdim etdiyi müqavilə mətninin 3-cü maddəsində belə qeyd edilir: *“1667 və 1673-cü illərin müqavilələrinə əsasən, Culfa erməni kompaniyası İranın bütün vilayətlərində hasil olan xam ipəyin hamısını və digər malları satmaq üçün Rusiyaya gətirməlidir. Türkiyəyə və başqa yerlərə gedən ticarət yollarına əhəmiyyət verilməməli və həmin kompaniyaya əmr edilməlidir ki, ticarətini yalnız Rusiya dövləti ilə aparsın, halbuki hazırda onlar (Rusiyaya) çox az ipək gətirirlər”* [2, s. 52]. Gördüyümüz kimi, 1667-ci il müqaviləsi Səfəvi-Rusiya münasibətlərində ipək ticarətinin leqallaşdırılması və tənzimlənməsi baxımından mühüm addım idi. Yeni Culfa tacirlərinin Səfəvi iqtisadiyyatında ənənəvi olaraq böyük rol oynayırdılar və onların Rusiya ilə ticarəti dövlət səviyyəsində dəstəklənirdi. 1717-ci il sənədi I Pyotrun dövrünə (Şimal müharibəsi sonrası və Qafqaz siyasətinin aktivləşdiyi dövr) aiddir. Rusiya ipək idxalını artırmaq, Osmanlı və Avropa rəqabətini zəiflətmək istəyirdi. Bu siyasət eyni zamanda Səfəvi dövlətinin daxili zəifləməsi fonunda xarici güclərin (Rusiya və Osmanlı) Səfəvi ipək ticarətinə nəzarət uğrunda mübarizəsini əks etdirir.

Bununla yanaşı, mərkəzi hakimiyyət yerlərdəki idarəçilərə xüsusi göstərişlər göndərərək rus tacirlərinə ehtiramla yanaşılmasını, onların təhlükəsizliyinin və rahat fəaliyyətinin təmin olunmasını tapşırmışdı. Bu, təkcə iqtisadi deyil, həm də diplomatik jest kimi qiymətləndirilə bilərdi. Lakin qeyd etmək lazımdır ki, bu imtiyazlar bütün rus tacirlərinə şamil edilmirdi; əsasən dövlət xəzinəsinə məxsus malların alqı-satqısı ilə məşğul olan tacirlər bu güzəştlərdən

yararlanırdılar. Buna baxmayaraq, verilmiş imtiyazlar ümumilikdə iki dövlət arasında ticarət dövriyyəsinin artmasına, qarşılıqlı iqtisadi maraqların möhkəmlənməsinə və uzunmüddətli əməkdaşlıq mühitinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

*Nəticə*

II Şah Abbas dövründə həyata keçirilən bu iqtisadi siyasət Səfəvi dövlətinin beynəlxalq ticarətdə fəal iştirakını gücləndirmiş, Rusiya ilə münasibətləri yalnız siyasi çərçivədən çıxararaq daha geniş – iqtisadi və ticari əməkdaşlıq müstəvisinə daşımışdır. Şah II Abbas dövründə Səfəvi–Rusiya münasibətləri iqtisadi əməkdaşlıqla siyasi gərginliyin paralel inkişaf etdiyi mürəkkəb bir mərhələni əks etdirir. İpək ticarəti və tranzit yolları vasitəsilə qarşılıqlı fayda əldə etmək istəyi əlaqələri saxlasa da, təhlükəsizlik problemləri (kazak yürüşləri), ərazi iddiaları və nəzarət uğrunda rəqabət münasibətləri daim gərgin saxlayırdı. Bu dövr göstərir ki, Səfəvi dövləti üçün Rusiya ilə əməkdaşlıq həm Osmanlılara qarşı balans yaratmaq, həm də şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək baxımından strateji əhəmiyyət daşıyırdı. Eyni zamanda Rusiya üçün Xəzər hövzəsinə çıxış və Şərq mallarına (xüsusilə ipəyə) nəzarət uzunmüddətli geosiyasi məqsəd idi. Nəticədə, qarşılıqlı maraqlar açıq qarşıdurmanın qarşısını almış, lakin tam etibar və sabitlik mühiti formalaşa bilməmişdir. Bu münasibətlər sonrakı əsrlərdə, xüsusilə XVIII əsrdə Rusiyanın Qafqaz siyasətinin əsasını təşkil etmişdir.

ƏDƏBİYYAT

1. Bayramlı Z.H., Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). Bakı: Avropa‖ nəşriyyatı, 2016. 344 səh.
2. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət / F.M.Əliyev. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1964. 111 s.
3. Əzimova S.A. Azərbaycan Səfəvi dövləti II Şah Abbasın hakimiyyəti dövründə (Məhəmməd Tahir Vəhidin “Abbasnamə” əsəri üzrə) // S.A.Əzimova. Bakı: “Zərdabi Nəşr” MMC, 2019. 184 s.
4. Qızılbaş Ensiklopediyası [2 cilddə] / T.Nəcəfli, C.Bayramlı, N.Rəhimov [və b.]. Bakı: Dini Araşdırmalar Mərkəzi, c. I. 2024. 504 səh.
5. Qızılbaş Ensiklopediyası [2 cilddə] / T.Nəcəfli, C.Bayramlı, N.Rəhimov [və b.]. Bakı: Dini Araşdırmalar Mərkəzi, c. II. 2024. 624 səh.
6. Multikultural dini ibadət kontekstində Atəşgah // Bakı: “Metafizika” Journal, 2025. vol 8, issue 6, serial 34, s. 317-328 https://metafizikajurnali.az/storage/ images/site/files/ Metafizika-34/Metafizika.Vol.8%2CNo.6%2CSerial.34%2Cpp.309-320.pdf
7. Süleymanov N.M. Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında) / N.M.Süleymanov. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2021. 283 s.
8. Шпаковский А.Я. Торговля Московской Руси с Персией в XVI-XVII вв. // Сборник статей, Киев, 1915, выпуск VII, с.1- 54

УДК 94(479.24)

*Солмаз Адиль кызы Азимова*
*Бакинский Государственный Университет*

# ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ СЕФЕВИДСКИМ ГОСУДАРСТВОМ И РУССКИМ ЦАРСТВОМ В XVII ВЕКЕ

## *РЕЗЮМЕ*

*Ключевые слова:* Сафавидско-русские отношения, Шелковая торговля, Каспийско-Волжский торговый путь, Период шаха Аббаса II, Джульфинская компания

Сефевидско-русские отношения в XVII веке в основном развивались на основе торговли шёлком, транзитного пути Каспий–Волга и взаимных экономических интересов. Стратегическое положение Азербайджана сыграло в этих связях важную роль, а такие города, как Шемаха, Баку, Дербент и Астрахань, превратились в ключевые центры торговли. В период правления шаха Аббаса II предоставление русским купцам широких привилегий по фирману 1664 года способствовало росту торгового оборота.

В то же время отношения не ограничивались исключительно экономической сферой. Разорительные походы донских казаков на прикаспийские территории, землетрясения 1667 и 1671 годов, попытки России возведения укреплений в районе Дербента, а также события 1653 года вызывали серьёзную политическую напряжённость. Несмотря на эти проблемы, обе стороны стремились избегать открытого конфликта и сохранять отношения посредством дипломатических переговоров.

Договор 1667 года в последующие периоды служил правовой основой сефевидско-русских торговых связей и закрепил роль джульфинской армянской торговой компании в торговле шёлком. В целом данные отношения отражают сложную динамику, в которой взаимная экономическая выгода переплеталась со стратегическим соперничеством.

Сафавидско-русские отношения, Шелковая торговля, Каспийско-Волжский торговый путь, Период шаха Аббаса II, Джульфинская компания

UDC 94(479.24)

*Solmaz Adil Azimova*
*Baku State University*

# ECONOMIC RELATIONS BETWEEN THE SAFAVID STATE AND THE TSARDOM OF RUSSIA IN THE 17th CENTURY

## *SUMMARY*

*Key words:* Safavid-Russian relations, Silk trade, Caspian-Volga trade route, Shah Abbas II period, Julfa company

Safavid–Russian relations in the 17th century were primarily shaped by silk trade, the Caspian–Volga transit route, and mutual economic interests. The strategic position of Azerbaijan played a crucial role in these interactions, while cities such as Shamakhi, Baku,

Derbent, and Astrakhan emerged as major centers of commerce. During the reign of Shah Abbas II, the granting of extensive privileges to Russian merchants by the decree of 1664 led to a significant increase in trade turnover.

At the same time, these relations were not confined solely to the economic sphere. The destructive raids of the Don Cossacks along the Caspian coasts, the earthquakes of 1667 and 1671, Russia's attempts to construct fortifications around Derbent, and the events of 1653 created serious political tensions. Despite these challenges, both sides sought to avoid open conflict and maintain relations through diplomatic negotiations.

The treaty of 1667 subsequently served as the legal foundation for Safavid–Russian commercial relations and formalized the role of the Julfa Armenian trading company in the silk trade. Overall, these relations reflect a complex dynamic in which mutual economic benefit was intertwined with strategic rivalry.

***Daxil oldu: 05.05.2026-cı il***